***Şakir HÜSEYN*** *

# AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİNİN SOVET RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI

**Açar sözlər:** Naxçıvan diyarı, Sovet Rusiyası, Erməni işğalı, Milli qırğın, Daşnak, bolşevik

**Key words:** Nakhchivan Territory, Soviet Russia, Armenian occupation, National slaughter, Dashnak, Bolshevik

**Ключевые слова:** Нахчыванский Территория, Советская Россия, Армянская оккупация, Национальная бойня, Дашнак, Большевик

1917-ci ildə çarizmin süqutu Rusiya imperiyasında yaşayan xalqlara öz müqəddaratını təyin etmək üçün geniş imkanlar yaratdı. Uzun illər azadlıq uğrunda mübarizə aparan Azərbaycan xalqı yaranmış şəraitdən istifadə edərək öz müstəqilliyini elan etdi. 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizə və cümhuriyyət hökumətinin fəaliyyəti nəticəsində bolşeviklər Azərbaycanı Sovet Respublikasının tərkibinə qatmaqdan çəkindilər.

1918-ci ilin yayında Naxçıvan iki tərəfdən məngənə arasında qalmışdı: bir tərəfdən Naxçıvanın özündə yaşayan erməni əhalisi diyarın Ermənistana birləşdiriləcəyi barədə şayiələrdən xoşlanaraq artıq bu yerlərə Ermənistanın bir hissəsi kimi baxır və daxildə hər cür fitnəkarlıqlar törədirdilər. Digər tərəfdən isə daşnakların ingilislərdən geniş yardım alaraq Culfanı öz əlinə keçirmiş başçısı Andronik Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdı: Süst, Çeşməbasar, Tumbul və s. kəndlər tamamilə dağıdılmışdı. Ermənilərin bu azğınlıqlaraına baxmayaraq müttəfiq dövlətlər — İngiltərə və Fransa daşnakların hərbi əməliyyatlarına yardım göstərməkdə davam edirdilər. (6, s 39)

1918-1920-ci illərdə Naxçıvan diyarında baş verən hadisələr, Andronik başda olmaqla erməni quldurlarının Naxçıvan, Şərur -Dərələyəz və Ordubad qəzalarında törətdikləri milli qırğınlar, bunun1a əlaqədar olaraq dəhşətli və faciəli şəkil almış ictimai və siyasi vəziyyət Cənubi Qafqaz hüdudları çərçivəsindən çox-çox kənar çıxaraq beynəlxalq problemə çevril-

* **Şakir Hüseyn** - Azərbacan Pedoqoji Universitetinin Vətən tarixi kafedrasının doktorantı

mişdi. Törədilmiş milli qırğınlar nəticəsində diyarın təsərrüfat həyatı ciddi tənəzzülə uğramış, mədəniyyəti əvəzolunmaz itkilərə məruz qalmış, əhalisinin sayı isə azalmışdır. Hərbi əməliyyatlar kənd və şəhərlərin dağılmasına və əhalinin boşalmasına səbəb olmuşdur. Göstərilən illərdə Naxçıvan, Ordubad, Şərur - Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd ya tamam, ya da qismən dağıdılmışdır (9, s 8).

İngilislərin himayədarlığından istifadə edən daşnaklar ingilis zabitlərinin iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanı ələ keçirdilər. Araz Respublikası hökuməti süqut etdi. Naxçıvan əhalisinin müsibətli günləri başlandı. Naxçıvanda yeni təşkil edilmiş general-qubernatorluğa əvvəlcə general Şelkovnikov, sonra isə qatı daşnak Varşamyan başçılıq edirdi. General Şelkovnikov və general Devinin imzaladıqları bəyannamədə milli sülh, kəndlilərə dinc həyat və torpaq vəd edilsə də, əslində, bu yerlərdə azərbaycanlıların təqib edilməsi, öldürülməsi daşnaklar üçün həyat normasına çevrildi. 1919-cu ilin iyununda Naxçıvan, Şərur və Ordubaddan gələn məlumatlara görə, Ermənistan hökuməti müsəlman xadimlərini həbs edir, hər addımda axtarışlar aparır, müsəlmanların əmlakını müsadirə edirdi. Ermənistan hökumətinin nizami hissələri Naxçıvan yaxınlığındakı müsəlmanların yaşadıqları Bulqan kəndini atəşə tutmuşdu, əhali vahimə içərisində evlərini tərk etməkdə idi (2, s 11).

Xalq düşmən işğalı altında yaşamağı özünə təhqir bilir və fəal çıxışlara başlayırdı.1919-cu ilin yazında Ordubadda, Zeynəddin, Bulqan, Şahbuz, Qıvraq və sair kəndlərdə ingilislər və daşnaklar əleyhinə çıxışlar baş vermiş, işğalçıların Naxçıvan torpaqlarını tərk etməsi tələb olunmuşdu. Xoşbəxtlikdən xalqın həmin arzusunun həyata keçməsini çox gözləmək lazım gəlmədi. Milli azadlıq hərəkatının bütün dünyada genişlənməkdə olan dalğaları 1919-cu il iyunun sonu - iyulun əvvəllərində ingilisləri öz qoşunlarını Naxçıvandan çıxarmağa məcbur etdi. Onlar getdikdən sonra Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdı. (3, s 11)

1919-cu il oktyabrın 22-də Bakıda Azərbaycan Xalq Cümhuriyyətin rəsmi orqanı olan «Azərbaycan» qəzetində Naxçıvanda ABŞ polkovniki Edmund Deli başda olmaqla Amerika general-qubernatorluğunun təşkil olunması haqqında əsasnamə dərc edildi. Bu isə, əslində, çıxılmaz vəziyyətdə qalmış Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyinin həmin məsələyə qeyri rəsmi qaydada razılığı kimi qəbul edilə bilərdi. Bununla belə, Azərbaycan hökuməti ilə Naxçıvan Milli Komitəsi arasında qardaşlıq münasibətləri əvvəlki kimi saxlanılırdı. Əldə olunmuş razılığa əsasən, Cümhuriyyət hökuməti altı min nəfərlik qoşun hissəsini silahlandırmağı Naxçıvan Milli Komitəsinə vəd etmişdi. (9, s 12)





Şimal qonuşumuz olan Sovet Rusiyası daxilindəki vətəndaş müharibəsi bolşeviklərin qələbəsi ilə başa çatdıqdan sonra hökumət keçmiş çar Rusiyası sərədlərini bərpa etmək niyyətinə düşdü.

Bolşeviklər hələ Cənubi Qafqaza gəlməmiş öz xəfiyyələrini hər yerinə yollamışdı. Bunlar birinci dəstə idi. Burada məqsəd bolşeviklərə rəğbət oyatmaq, keçmiş rus zülümünü unuturmaq idi (8, s 26)

Ancaq cəmi 23 aydan sonra Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdı və 28 aprel 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti elan olundu. Bakıdakı çevriliş xəbəri Naxçıvan diyarına çox tez, elə aprel ayının 28-də çatdı. XI Qırmızı Ordu hissələrinin Naxçıvana gəlməsindən əvvəl türk qoşunlarının burada yerləşməsi Naxçıvan Milli Komitəsinin 1500 nəfərlik qoşun hissələrinin fəaliyyəti, daşnak ordusunun Naxçıvana mütəmadi hücumları, ABŞ, İngiltərə və Fransa nümayəndəliklərinin müxtəlif formalarda Naxçıvana müdaxilə etmək istəkləri siyasi vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Naxçıvanın strateji mövqeyi onu bir sira iri dövlətlərin diqqət mərkəzinə çevirirdi. Belə ki, Naxçıvan məsələsi 1918-ci ildə bir neçə dəfə Zaqafqaziya Seymində, 1918-1920-ci illərdə dəfələrlə Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində və Erməni Milli Şurasında, Ermənistan parlamentlərində, 1919-cu ildə Versal sülh konfransında, 1919-1920-ci illərdə Ermənistanda və Naxçıvanda olan ABŞ nümayəndəliyində, 1920-1921-ci illərdə Azərbaycan SSR və Ermənistan SSR İnqilab Komitələrində, 1921-ci il martın 16-da RK(b)P Siyasi Bürosunda və 1920 - 1921-ci illərdə RSFSR Xalq Komissarları Sovetində, həmçinin, 1920-ci ildə Moskva və Qars şəhərlərində keçirilmiş beynəlxalq sülh konfranslarında müzakirə edilmişdir. (9, s 8)

Azərbaycanın digər ərazilərində zorakı vasitələrlə Sovet hakimiyyətinin elan olunmasından sonra Naxçıvanın işğal edilməsinə diqqət daha da gücləndi. 1920-ci ilin yazında AK(b)P MK və Azərbaycan İnqilab Komitəsi əhali arasında inqilabi iş aparmaq üçün Naxçıvana bir qrup kominist göndərdi (6, s 68.).

Həmin qruplar əhali arasında yalan təbliğat apararaq sadə xalq kütlələrini sovetləri dəstəkləməyə çağırırdılar. Əfsuslar olsun ki, əhali arasından müəyyən qruplar yalan vədlərə uyaraq sovetlərin təbliğat maşınına çevirilir və yerli milli qüvvələrə qarşı çıxırdılar. Türk generalı Veysəl Ünüvar öz xatirələrində yazır: "Mən Naxçıvandan ayrıldığım zaman orada vəziyyət çox yaxşı idi. Nizamlı təşkilatları, qüvvələri, birlikləri qibtə ediləcək dərəcədə idi. Nəşələrini ancaq yaxınlaşmaqda olan rus təhlükəsi pozurdu. Bolşevikliyin nə olduğunu bilən yox idi. Bunu məmləkətdə aclıq və səfaləti yox etmək, hər kəslə insan kimi rəftar etmək olaraq zənn edirdilər. Naxçıvanlılar bu insani münasibəti şüurlu olaraq qəbul etmiş, Rusiyadan gəlmiş bir qrupa ehtiram göstərmiş, onları qonaq etmiş. Öyüd-nəsiətlərinə diqqətlə qulaq asmışdılar.

Kommunist mitinqi: Mən orda olanda kommunist Behbud Şahtaxtinskinin təşəbbüsüylə bir mitinq keçirilməsinə qərar verilmişdi... O zaman bizim kimi hamı nağaranı uzaqdan dinləyirdi:

Bu nağaraya görə bolşeviklər ədalət, insaf və şəfqət mücəssiməsi idilər, zalımların taxtını başına çevirmişdilər. Dünya cənnəti, qızıl əsr yaradacaqdılar" (8, s 25).

Yuxarıda yazılanlardan aydın görünür ki, yerli əhali bolşevik təhlükəsini düzgün anlaya bilmir, Azərbaycanın başına gətiriləcəklərdən xəbərsiz bolşevik təbliğatına körtəbii formada inanırdılar.

Quzey Azərbaycanın XI rus ordusu tərəfindən zəbt edilməsi nəticəsində baş vermiş aprel çevrilişindən sonra ermənilər Bolşeviklər Partiyasının rəhbərlərini ələ almaqla, eləcə də hərbi təcavüz yolu ilə Azərbaycana qarşı qəsbkarlıq siyasətini daha da genişləndirirdilər. Daşnak qoşunları Qarabağ, Naxçıvan, Zəngəzur və digər bölgələrdə qanlı döyüş əməliyyatları aparmağa başladılar. Dövlət müstəqilliyini itirmiş Azərbaycan isə Ermənistanla birbaşa deyil, yalnız Sovet Rusiyası vasitəsilə münasibətlərə girə bilərdi. RSFSR Azərbaycan sovet dövləti adından Ermənistan ilə danışıqlar aparır və müqavilələr bağlayırdı. Azərbaycan xalqının taleyi bolşevik Rusiyası ilə erməni daşnaklarının münasibətlərindən asılı olaraq həll edilirdi.

Ermənisanın daşnak rəhbərliyi Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1920-ci il aprel çevrilişindən sonra Ermənistan hökuməti bildirdi ki, əgər Azərbaycan Şərur-Dərləyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə, o da öz növbəsində Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verər. Azərbaycan İnqilab Komitəsinin sədri N. Nərimanov bu təklifi rədd edərək, qədim Azərbaycan torpaqları olan Culfa və Naxçıvan rayonlaının dərhal sovet qoşunları tərəfindən tutulmasını və Azərbyacana birləşdirilməsi təkidlə tələb edirdi.





Ermənistanın XİN Ohancanyan Qafqaz Cəbəsinin Hərbi-İnqilab Şurasının sədri Q.Orconikidzeyə mayın 1-də göndərdiyi notada (sürətləri: Leninə, Çiçerinə, Azərbaycan İnqilab Komitəsinə) mübahisəli ərazilərdə nə indi, nə də əvvələr erməni silahlı qüvvələrinin olmadığını yazır, Azərbaycana öz qoşunlarını həmin bölgələrdən çıxarmağı tapşırmağı xahiş edirdi. Sənəddən göründüyü kimi Ermənistan onunla Azərbacan arasında mübahisəli məsələlərin həllində Sovet Rusiyasının vasitəçiliyini istəyir və buna çalışırdı (5, s 267).

1920-ci il mayın 10-da Azərbaycan İnqilab Komitəsi N.Nərimanovun və M.D.Huseynovun imzası ilə daşnak hökumətinə yenidən müraciət edərək may ayının 15-dən gec olmayaraq mübahisəli rayonlar (Naxcivan, Zəngəzur və Qarabağ) haqqında danışıqlara başlamağı təklif etdi. Lakin daşnak hökümət öz ingilis və amerikan ağalarının göstərişi ilə Azərbaycan SSR hökümətinin bu təklifini rədd etdi (6, s 66).

Naxçıvan və Zəngəzur bölgələrinin yenidən ələ keçirilməsinə böyük siyasi və strateji əhəmiyyət verən Sovet Rusiyası onların tutulması üçün həm diplomatik vasitələrdən istifadə edir, həm də xüsüsi hərbi əməliyyatların planlarını işləyib hazırlayır, daxildəki bəzi qüvvələrlə birlikdə buna ideoloji zəmin yaratmağa çalışırdı. Məhz bu məqsədlə də RSFSR XİK-in müavini milliyətcə erməni olan Qaraxan mayın 15-də İrəvan (1101 sayılı) və Bakıya (1102 sayılı) telegramlar göndərdi. Həmin telegramlarda Ermənistan hökümətinin Azərbaycanla arasındakı mübahisəli məsələlərin həllində vasitəçi rolunu öz üzərinə götürmək barədə Sovet Rusiyasının qəbul etdiyi və digər tərəfin də buna razılığının zəruriliyi bildirilirdi (1).

Sövet Rusiyasının rəhbərliyi əsas məqsədini bu teleqramlarla açıqlayaraq mübahisəli ərazi məsələləri nizamlananadək güya millətlərarası toqquşmalara və qırğınlara yol verməmək üçün Naxçıvan, Zəngəzur və Qarabağın rus qızıl ordusu tərəfindən tutulacağını, bu barədə artıq hərbi komandanlığa əmr verildiyini bəyan etdi (5, s 269.). Buradan aydın görünür

ki, Sovet Rusiyası yaranmış vəziyyətdən istifadə edərək bölgəyə öz qoşunlarını yerləşdirərək bu ərazilərdə möhkəmlənmək niyyətində idi.

Sovet Rusiyası Bakı və ətraf əraziləri işğal etdikdən sonra Naxçıvan, Zəngəzur və Qarabağın işğal olunmasına mühüm önəm verirdi, amma sovet işğalına qarşı Gəncədə, Qarabağda, Zaqatalada və Azərbaycanın digər yerlərində baş verən üsüyanlar bolşevikləri işğal prosesini müəyyən müddət üçün təxirə salmağa vadar etdi.

Bu fikri Çiçerinin Orconikidzeyə 1920-ci il 2 iyun tarixli teleqramıda təsdiqləyir. Teleqramda deyilirdi: "Azərbaycan hökümətinə bildirin ki, biz Şuşa və Cəbrayılı tutmaqla kifayətlənmək zərurəti qarşısında qalmışıq... Bakı hökümətinə Naxçıvan və Culfanı indi tutmağın mümkün olmadığını və hərbi status-kvo ilə kifayətlənmək məcburiyətində qalmağın obyektiv səbəblərini bildirməyi xahiş edirəm... Bakıdakı böyük nüfuzunuzdan istifadə edib Azərbaycan hökümətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi etirafına nail olmağı xahiş edirik"

Daha sonra Çiçerin 1920-ci il 19 iyun tarixli teleqramında bildirirdi ki, Qarabağ, Zəngəzur, Naxçıvan və Culfa nə Ermənistana, nə də Azərbaycana birləşdirilməli, yerli sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdır (5, s 270).

Belə bir şəraitdə XI Qırmızı Ordunun Hərbi Şurası və Azərbaycan İnqilab Komitəsi Naxçıvana göndərdiyi teleqramda hakimiyyətin təcili sovetlərə verilməsini tələb edirdi. 1920-ci il iyulun 17-də S.Orconikidze Bakıdan V.İ.Leninə və G.V.Çiçerinə göndərdiyi teleqramında yazırdı ki, ermənilərin hücumu ilə əlaqədar bu rayonda qırğınlar qaçılmaz olduğu üçün Naxçıvan rayonunun bizim ordular tərəfindən tutulması zəruridir (7, s 332). Tezliklə Naxçıvanın sovetləşməsi uğrunda mübarizə genişləndi. 1920-ci il iyul ayının 19-da Naxçıvanı dasnak dəstələrinidən təmizləmək haqqında Qızıl Orduya əmr verildi. Könüllü Naxçıvan alayının, Qırmızı Türk əsgərləri dəstələrinin və XI ordu hissələrionin daşnaklar əleyhinə apardıqları birgə əməliyyat nəticəsində XI Qırmızı Ordunun birinci Qafqaz polku Gorus, Şahbuz və Cəhridən keçərək 1920-ci il iyul ayının 28-də axşamüstü Naxçıvan şəhərinə daxil oldu. İyulun 29-da Naxçıvanda İnqilab Komitəsi yarandı: bu komitə özünün fəhlə və kəndlilərə ilk müraciətində ölkədə burjua-mülkədar hakimiyyətinin devirildiyinin və Sovet hakimiyyətinin qurulduğun elan edərək Naxçıvanı Sovet Sosialist Respublikası





elan etdi. Qısa bir zaman ərzində Naxçıvan qəzasının bütün yaşayış məntəqələrində və kəndlərində məntəqə və kənd İnqilab Komitələri yaradıldı. İnqilab Komitələrinə yanlız fəhlələr, kəndlilər və əsgərlər daxil olmalı idilər. (6, s 74)

1920-ci il iyul ayının 29-da İnqilab Komitəsi daşnak hökümətinə müraciət edərək sülh danışıqlarına başalamağa və qan axıdılmasına son qoymağı təkli etdi. Daşnak höküməti öz imperalist ağalarının yardımına arxalanaraq, özünün cinayətkar işğalçılıq siyasətini davam etdirərək, Naxçıvan İnqilab Komitəsinin sülh haqqındakı təklifini rədd etdi. Daşnak hökümətinin hərbi naziri iyul ayının 30-da Naxçıvan İnqilab Komitəsindən həyasızcasına tələb etdi ki, Naxçıvan əhalisinin erməni hökümətinə sözsüz itaət etməsini təmin etsin: 7000 tüfəng və hər tüfəngə 80 patron, bütün pulemyotları və topları, 300000 pud taxil, bundan 150 000 pud qaytarılmamaq şərtilə, 300 yəhərli at və 200 baş iş heyvanı versin (6, s 77).

XI Qırmızı Ordu Naxçıvanı tutduqdan sonrakı ilk dövrlərdə də erməni quldurlarının bura basqınlarının ardı arası kəsilmirdi. 1920-ci il daşnak silahlı dəstələri Şərura hucuma keçdilər. Əhali ermənilərin hücumlarına tab gətirə bilməyib yaşayış yerlərini tərk etdi və İrana keçməyə məcbur oldu. Daşnak qoşunlarının ön dəstəsi Yurdçu, Qabıllı kəndlərinə od vurub yandırdı. Qaçqın kütləsi körpülərdən keçərək Ərəblərə çəkildi. Şərurluların müdafiəsiz olmasından istifadə edən daşnaklar Püsyan, Qarabağlar, Xok, Şahtaxtı cəbhəsini yararaq

Naxçıvan şəhəri istiqamətində hücuma keçdilər. XI Qırmızı ordunun Naxçıvanda İnqilab Komitəsi yaratması nəticəsində daşnakları tədricə Naxçıvana hücumlarını dayandırmağa məcbur oldular.1920-cı il avqust ayının 22-də çagırılmış Naxçıvan Rayon Partiya Təşkilatının ümumi yığıncağı Naxçıvan İnqilab Komitəsinin fəaliyyəti və tərkibi haqqında məsələni geniş müzakirə etdi. Həmin yığıncaqda çıxış edən koministlər İnqilab Komitəsinin zəif işlədiyini göstərdilər (6, s 75).

İnqilab Komitəsinin zəif işləməsinin əsas səbəbi komitəyə gizli yollarla soxulmuş xan-bəylərin və qolçomaqların antisovet təbliğat aparması idi. Bu məsələ Naxçıvanda tam olaraq sovet hakimiyyətinin qurulmasını bir müddət ləngidəcəkdi. Naxçıvan Rayon Partiya Təşkilatı İnqilab Komitəsinin fəaliyyətini yaxşılaşdırmaq və ona düzgün istiqamət vermək məqsədilə inqilab komitəsinə xanların, bəylərin, sələmçilərin,

keçmiş çar məmurlarının və muzdul əmək hesabına yaşayan şəxslərin daxil olmasına yol verməmək, onun tərkibini sovet quruculuğu işinə yaxşı bələd olan komminstlər, Qızıl Ordu əsgərləri və Qızıl Ordu komandirləri hesabına tamamlamaq, türk hərbiçilərinin nümayəndəsini İnqilab Komitəsindən kənar etmək, türklərin xeyrinə toplanan "zəkat" vergisini ləğv etmək və Naxçıvan ərazisində türklərin fəaliyyətinə ciddi nəzarət qoymaq haqqında qəti qərar qəbul etdi. 1920-ci ilin avqustun sonlarında Naxçıvan İnqilab Komitəsi antisovet təbliğatı aparan Naxçıvan milli komitəsinin keçmiş üzvlərinin hərəkətini müzakirə edərək, onları həbsə alıb Bakıya sürgün etdi. Sovet hakimiyyətinin qəddar düşmənləri, keçmiş Naxçıvan milli Komitəsinin sədri Cəfərqulu xan Naxçıvanski və onun qardaşı Rəhim xan da sürgün edilənlərin arasında idilər. 1920-ci ilin sentyabr ayının əvvəlində Naxçıvandakı "əksinqilabi ünsürlərlə" mübarizə aparmaq üçün burada Fövqəladə İstintaq Komisyası təşkil olundu (6, s 75). 1920-ci il oktyabrın 19-da Ordubad qəzası daşnak qüvvələrindən təmizləndikdən sonra burada Sovet hakimiyyəti quruldu. Ordubad istiqamətində məğlubiyyətə uğrayan daşnaklar əsas qüvvələrini yenidən Şərur və Şaxtaxtında toplamağa başladılar. Daşnakların bütün cəhdlərinə baxmayaraq, dekabrın 2-də Şərur qəzasında da Sovet hakimiyyəti bərqarar oldu. Bununla da, bütün Naxçıvan ərazisi sovetləşdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası DA, f.28, siy.1 iş 70, v 96; iş 99, v 99.
2. ARDA, f. 970.siyahı 1, iş 142, vərəq 56-63
3. 3.ARDA, f. 970 .siyahı 1,iş. 42, vərəq 3-4. s.s səh 11
4. Əzimov H. Azərbaycan qəzalarında Sovetlər"Bakı, 1971, s. 18
5. Musayev İ. "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)" Bakı, 1998
6. Mədətov Q. "Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-nin təşkili" Bakı, 1958
7. Ünüvar V. "Naxçıvan Təlatüm və Burulğanlar 1920-1921" Naxçıvan, 2006
8. Sadıqov S. Həsən oğlu "Naxçıvan Muxtar Respublikası tarixindən". Bakı, 1995






## OCCUPATION OF NAKHCHIVAN IN AZERBAIJAN BY SOVIET RUSSIA SUMMARY


Given the complex geopolitical and geographical location of Azerbaijan's Nakhchivan region, the historical, socio-economic and military-political study of the region is of particular relevance, given the Armenians' history of plotting to seize this land.

On April 28, 1920, with the declaration of the Soviet Socialist Republic, Azerbaijan increased tension in the Nakhchivan region. Especially in the early years of the Soviet power, the pursuit of the place and the role of this ancient land in the history of national statehood in Azerbaijan, and the conduct of research in this area, have increased the relevance of research.

Shortly after the Soviet occupation of other territories of Azerbaijan, on July 19, 1920, the Red Army was ordered to liberate Nakhchivan and cleanse it of the Dashnak mosque.

The first Caucasian regiment of the 11th Red Army crossed Gorus, Shahbuz and Jahri and entered the city of Nakhchivan on the evening of July 28, 1920. On July 29, a revolutionary committee was established in Nakhchivan

On October 19, 1920, the Dashnak forces attacked Ordubad

After the cleansing, the Soviet power was established here. Despite all the efforts of the Dashnaks, on December 2, the Soviet power was restored in the Sharur accident. However, the whole of Nakhchivan became Soviet.


## ОККУПАЦИЯ НАХЧЫВАНСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА СОВЕТСКОЙ РОССИЕЙ РЕЗЮМЕ


Учитывая сложное геополитическое и географическое положение Нахчыванского региона Азербайджана, исторические притязания армян на эту территорию, исследование социально-экономической и военно-политической истории региона имеет особое значение.

28 апреля 1920 года, после провозглашения Азербайджанской Советской Социалистической Республики, напряженность в Нахчыванском регионе республики усилилась. Вскоре после советской оккупации других территорий Азербайджана 19 июля 1920 года Красная Армия получила приказ очистить Нахчыван от дашнакских сил.

Вечером 28 июля 1920 года Первый Кавказский полк 11-й Красной Армии пересек Горус, Шахбуз и Джахри и вошел в город Нахчыван. 29 июля в Нахчыване был создан Революционный комитет

19 октября 1920 г. Ордубад был очищен от армянских вооруженных формированийи и здесь была установлена советская власть. Несмотря на все усилия дашнаков, 2 декабря советская власть была установлена и в Шаруре. Таким образом весь Нахчыван стал советским.